***Əlavə 2***

**“Bakı 2015” Birinci Avropa Oyunlarına həsr olunmuş intellektual oyun üzrə 2015-ci ilin regional məktəb çempionatının keçirilmə**

**Qaydaları**

**1. Ümumi müddəalar**

“Bakı 2015” Birinci Avropa Oyunlarına həsr olunmuş intellektual oyun üzrə məktəb çempionatı regionlarda gənclərin intellektual klublarının yaradılması, daha çox məktəblinin intellektual fəaliyyətə cəlb edilməsi, onların asudə vaxtlarının səmərəli təşkil edilməsini təmin etmək məqsədilə keçirilir.

Çempionatın əsas məqsədi gənclərin intellektual və yaradıcılıq bacarıqlarının inkişafına kömək etməkdən, eləcə də yüksək yaradıcılıq qabiliyyətinə, intellektual potensiala və müxtəlif sahələrdə dərin biliklərə malik gənclərin aşkar edilməsi, onların inkişaf etdirilməsinə şəraitin yaradılması.

Çempionatın əsas vəzifəsi Azərbaycan Respublikasının müxtəlif regionlarında ən güclü məktəb komandalarını müəyyən etmək və onların gələcək inkişafına şərait yaratmaqdan, həmçinin, Azərbaycan Respublikasının şəhər və rayonlarında məktəblilərin intellektual və yaradıcılıq səviyyəsinin yüksəldilməsinə nail olmaqdır.

**2. Çempionatın keçirilmə qaydaları**

Hər bir ümumtəhsil müəssisəsinin komandası öz rayonunda oyunlara cəlb edilir. Bu mərhələdən qalib çıxan komanda rayonu zonalarda keçirilən “Bakı 2015” Birinci Avropa Oyunlarına həsr olunmuş intellektual oyun üzrə regional məktəb çempionatında rayonu (şəhəri) təmsil etmək hüququnu qazanır.

Daha çox xal toplamış komanda hər bir mərhələnin qalibi olur. Ümumilikdə 12 qalib – Bakı birinciliyinin bir qalibi və regional yarışların 11 qalibi müəyyən olunur.

Bakı şəhərində və zonalar üzrə regionlarda bütün oyunlar 17 may 2015-ci il tarixində eyni saatda başlanaraq keçirilir.

“Bakı 2015” Birinci Avropa Oyunlarına həsr olunmuş intellektual oyun üzrə regional məktəb çempionatında 36 sual səslənir və hər biri 12 sualdan ibarət olan 3 tur oynanılır.

Hər bir  komandada oyun masası arxasında maksimum 6 (altı) nəfər əyləşə bilər. Bu 6 (altı) oyunçudan biri komandanın kapitanıdır.

Təşkilat Komitəsinə təqdim ediləcək ərizəyə 8 (səkkiz) nəfərədək iştirakçını daxil etmək olar, lakin eyni zamanda yalnız 6 (altı) nəfər oynaya bilər. Əvəzetmələrə turlararası fasilələrdə icazə verilir.

Bütün komandalar eyni zalda, eyni vaxtda oynayır, Cavablar yazılı qaydada aparıcıya təhvil verilir.

Cavab blankının yuxarı sol küncündə komandanın adı, yuxarı sağ küncündə isə cavabın nömrəsi yazılır. Blankın ortasında cavabın özü yazılır.

Aparıcı təyin olunmuş nömrələrə müvafiq olaraq sualları ardıcıl qaydada verir. Hər sualdan sonra müzakirə üçün bir dəqiqə vaxt verilir.

Dəqiqə bitdikdən sonra cavab blanklarında cavabları yazaraq aparıcıya təqdim etmək üçün komandalara 10 saniyə vaxt verilir. Həmin 10 saniyə ərzində vaxt geriyə sayılır. “Sıfır” rəqəmi səsləndikdən sonra cavabı təqdim edən komandalar gecikmiş hesab olunur və onların müvafiq suala verdiyi cavab nəzərə alınmır.

Hər düzgün cavaba görə komandaya bir xal verilir.

Daha çox xal qazanan komanda oyunda qalib olur.

Birinci yerin bölüşdürüldüyü hallar istisna olmaqla, xalları bərabər olan komandalar tutduqları yerləri bölüşdürmüş hesab olunurlar. Birinci yeri tutan komandanın müəyyənləşdirilməsi üçün cavab verdiyi sualların məcmu reytinqi hesablanır. Ən yüksək reytinqə malik olan komanda qalib elan olunur

Hər bir konkret sualın reytinqi [*Σ=1+suala cavab verməmiş komandaların sayı*] düsturu əsasında hesablanır.

Reytinq üzrə bərabərlik təqdirində əlavə suallar verilir.

Hər əlavə sualdan sonra, suala cavab verməmiş komanda, rəqibinin həmin suala cavab verdiyi təqdirdə, mübarizəni dayandırır.

Əlavə suallar qalib müəyyən olunana qədər verilir.

Hər bir turun nəticələri əsasında aralıq nəticə hesablanır. İlkin nəticələr elan olunduqdan sonra komanda hansı cavabların onun xeyrinə hesablanıb-hesablanmadığını dəqiqləşdirə və nəticələri öz hesablamaları ilə müqayisə edə bilər. Bu cür müqayisə yalnız turlararası fasilələrdə aparıla bilər.

Yekun qərarı oyunun aparıcısı qəbul edir.

Hər tur 12 sualdan ibarət olur. 12 sual oxunduqdan sonra 15 dəqiqəlik fasilə elan edilir.

Sonuncu tur başa çatdıqdan sonra oyunun ilkin nəticələri elan olunur. Komandalar 10 dəqiqə ərzində nəticələri öz hesablamaları ilə müqayisə edirlər və ziddiyyətlər aşkar olunmadıqda, nəticələr yekun hesab olunur.

Oyunun keçirilməsi üçün hər bir komanda aşağıdakı ləvazimatlarla təchiz olunmalıdır:

- 6 nəfərdən ibarət komandanın rahat yerləşə biləcəyi masa (masanın dəyirmi olması daha məqsəduyğundur);
- 6 stul;
- kağız və ən azı 6 qələm.
- 9x9 sm ölçüdə dördbucaq kağızlardan ibarət olan cavab blankları.

Oyun zalında aşağıdakı ləvazimatlar olmalıdır:

- İşlək mikrofon, eləcə də ən azı bir ehtiyat mikrofon
- Proyektor və monitor
- Aparıcı üçün masa və lazımi sayda stul
- Zal lazımi səviyyədə işıqlandırılmalı və münasib hava temperaturu təmin olunmalıdır.

Komandalardan cavabları toplamaq üçün aparıcının köməkçiləri təyin olunur. Hər 5 komanda üçün ən azı bir köməkçi təyin edilir.

## 3. Çempionatın təşkili məsələləri.

Çempionat aşağıda göstərilən zonalarda keçirilir:

***Bakı şəhəri***- 17 may 2015-ci il tarixində Nəsimi, Nizami, Nərimanov, Xətai, Səbail, Yasamal, Binəqədi, Xəzər, Pirallahı, Suraxanı, Sabunçu, Qaradağ, Zəngilan, Şuşa rayonları və Respublika tabeli məktəblər.

***Gəncə şəhəri***- 17 may 2015-ci il tarixində Gəncə şəhəri**.**

***Naxçıvan*** **şəhəri**- 17 may 2015-ci il tarixində Naxçıvan şəhəri, Ordubad, Babək, Şahbuz, Şərur, Sədərək, Kəngərli, Culfa rayonları.

***Şəmkir şəhəri***-17 may 2015-ci il tarixində Şəmkir, Tovuz, Gədəbəy, Qazax, Ağstafa, Samux, Göygöl və Daşkəsən rayonları.

***Mingəçevir şəhəri***- 17 may 2015-ci il tarixində Mingəçevir, Naftalan şəhərləri, Ağdaş, Yevlax, Bərdə, Tərtər, Xocalı, Kəlbəcər və Goranboy rayonları.

***Şirvan şəhəri***- 17 may 2015-ci il tarixində Şirvan şəhəri, Sabirabad, Hacıqabul, Kürdəmir, Füzuli, Beyləqan rayonları.

***İmişli şəhəri***- 17 may 2015-ci il tarixində İmişli, Ağcabədi, Saatlı, Ağdam, Laçın, Cəbrayıl və Xocavənd rayonları.

***Lənkəran şəhəri***-17 may 2015-ci il tarixində Lənkəran şəhəri, Astara, Masallı, Cəlilabad, Biləsuvar, Yardımlı, Lerik, Salyan, Neftçala rayonları

***Sumqayıt şəhəri-***17 may 2015-ci il tarixində Sumqayıt şəhəri.

***Quba şəhəri-*** 17 may 2015-ci il tarixində *Quba*, Qusar, Xaçmaz, Şabran, Siyəzən, Xızı, Abşeron, Qubadlı rayonları.

***Zaqatala şəhəri***- 17 may 2015-ci il tarixində Zaqatala, Qəbələ, İsmayıllı, Şəki, Qax, Balakən, Oğuz rayonları.

***Göyçay şəhəri***-17 may 2015-ci il tarixində Göyçay, Ağsu, Şamaxı, Ucar, Zərdab, Qobustan rayonları.

Zonalar üzrə tədbirin keçiriləcəyi yer və dəqiq vaxtı barədə Bakı, Naxçıvan, Gəncə, Şirvan, Mingəçevir, Lənkəran, Sumqayıt, Quba, Zaqatala, İmişli, Şəmkir və Göyçay rayon (şəhər) təhsil şöbələri (idarələri) əlavə olaraq zonalar üzrə rayon və

şəhərlərə yarış barədə məlumatlar verir, bununla bağlı lazımi təşkilati işlər həyata keçirirlər.

Çempionatın başlanğıc saatı hər bir zonada eyni vaxtdır - saat 11.00.

Regional çempionatda iştirak üçün Bakı şəhərinin hər bir rayonundan 3 (üç) məktəb komandası və Şuşa və Zəngilan rayonlarının hər birindən bir komanda olmaqla cəmi 38 (otuz səkkiz), Gəncə şəhərindən 20 (iyirmi), Sumqayıt şəhərindən 15 (on beş), digər rayon və şəhərlərin hər birindən bir (komanda) müəyyən edilir.

Respublika tabeli tam orta məktəblər 17 may 2015-ci il tarixdə Bakı şəhəri üzrə Təhsil İdarəsinin tabeliyində olan 18 nömrəli tam orta məktəbdə təşkil olunacaq Regional çempionata qatılırlar. Nazirliyin tabeliyində olan məktəblər yarışda iştirakları barədə 10 may 2015-ci il tarixdən gec olmayaraq Bakı şəhəri üzrə Təhsil İdarəsini rəsmi məlumatlandırırlar.

Çempionatda 8-10-cu sinif şagirdləri iştirak edə bilər.

Rayonlardan çempionata vəsiqə qazanmış komandalar həmin bölgənin müxtəlif məktəblərindən toplanmış şagirdlərdən ibarət ola bilər.

Bakı, Sumqayıt, Gəncə şəhərlərində keçiriləcək regional çempionatda komandalar təmsil etdikləri məktəbin şagirdlərindən ibarət kompektləşdirilir.

Çempionatın oyunları bölgələrə ezam olunacaq əməkdaşlar tərəfindən idarə olunur.

## 4. Qiymətləndirmə və rəğbətləndirmə

“Bakı 2015” Birinci Avropa Oyunlarına həsr olunmuş intellektual oyun üzrə regional məktəb çempionatının hər zona üzrə qalib çıxmış komandası Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən qiymətli hədiyyələrlə mükafatlandırılır. Zonalar üzrə qalib çıxmış komandalar müvafiq televiziya kanalı tərəfindən həyata keçiriləcək televiziya çəkilişlərinə dəvət olunurlar.